# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" 2020-ci il 11 iyun tarixli 199 nömrəli və "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" 2021-ci il 26 may tarixli 151 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki, 2022-ci il aprelin 15-dən etibarən Azərbaycan Respublikasına giriş üçün COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənədi təqdim etmək tələbi ləğv edilir.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789; 2021, № 5, maddə 504, № 6 (IV kitab), maddə 662, 673, № 7, maddə 884, № 10, maddə 1197; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 408 nömrəli və 2022-ci il 22 yanvar tarixli 27 nömrəli qərarları) ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.1-ci yarımbəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi XİN
Daxilolma nömrəsi: 2/3357/22
Daxilolma tarixi: 18.04.2022

"Ölkədaxili uçuşlar zamanı sərnişinlərdən COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur.";

2.2. 2.1.3.1-ci yarımbənd üzrə:

2.2.1. 1-ci və 2-ci abzaslardan "və uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd" sözləri çıxarılsın;

2.2.2. 3-cü abzas ləğv edilsin;

2.3. 2.1.3.2-ci yarımbənddən "və uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd" sözləri çıxarılsın;

2.4. 2.1.3.3-cü yarımbənd ləğv edilsin.

3. "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 530, № 6 (IV kitab), maddələr 668, 679, 683, № 7, maddələr 872, 890, 891, № 8, maddələr 957, 971, № 9, maddələr 1051, 1079, № 10, maddə 1182; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 11 dekabr tarixli 389 nömrəli, 23 dekabr tarixli 409 nömrəli, 30 dekabr tarixli 419 nömrəli və 2022-ci il 13 yanvar tarixli 9 nömrəli, 26 yanvar tarixli 29 nömrəli, 15 fevral tarixli 40 nömrəli və 5 mart tarixli 71 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.5-1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.5-1.1. Rusiya Federasiyasının və Türkiyə Respublikasının vətəndaşlarına və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarına, habelə vətəndaşlığı olmayan şəxslərə - COVID-19 pasportu (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənəd) əsasında (yaşı 18-dək olan şəxslər istisna olmaqla);";

3.2. 2.5-1.2-ci yarımbənd ləğv edilsin;

3.3. 2.5-2-1.1-ci və 2.5-2-1.2-ci yarımbəndlərdən "və uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd" sözləri çıxarılsın;

3.4. 2.5-4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.5-4.1. avtobus marşrutu ilə hərəkət edən sərnişinlərdən COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur;".

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 aprel 2022-ci il

№ 152

57 №-li nüsxə

**Əlavə 1**

*"Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə"*
Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarında
edilmiş müvafiq əlavə və dəyişikliklərə əsasən
vətəndaşlarına və burada daimi yaşayan digər ölkə vətəndaşlarına, habelə vətəndaşlığı olmayan şəxslərə hava nəqliyyatı vasitəsilə
Azərbaycan Respublikasına giriş-çıxışına icazə verilən ölkələrin
**SİYAHISI:**

1. Rusiya Federasiyası
2. Türkiyə Respublikası
3. Amerika Birləşmiş Ştatları
4. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı
5. Macarıstan
6. İsrail Dövləti
7. Birləşmiş Ərəb Əmirlikləri
8. Bəhreyn Krallığı
9. Qətər Dövləti
10. Almaniya Federativ Respublikası
11. Avstriya Respublikası
12. Belçika Krallığı
13. Çex Respublikası
14. Danimarka Krallığı
15. İrlandiya Respublikası
16. İspaniya Krallığı
17. İsveç Krallığı
18. İsveçrə Konfederasiyası
19. Kanada
20. Lüksemburq Böyük Hersoqluğu
21. Malta Respublikası
22. Niderland Krallığı
23. Polşa Respublikası
24. Portuqaliya Respublikası
25. Serbiya Respublikası
26. Sinqapur Respublikası
27. Sloveniya Respublikası
28. Slovakiya Respublikası
29. Yunanıstan Respublikası
30. Çin Xalq Respublikası
31. Estoniya Respublikası
32. Finlandiya Respublikası
33. Fransa Respublikası
34. Xorvatiya Respublikası

35. İslandiya Respublikası
36. İtaliya Respublikası
37. Latviya Respublikası
38. Litva Respublikası
39. Malayziya
40. Səudiyyə Ərəbistanı Krallığı
41. Yaponiya
42. Çin Xalq Respublikasının xüsusi inzibati ərazisi olan Honq-Konq
43. Argentina Respublikası
44. Avstraliya İttifaqı
45. Braziliya Federativ Respublikası
46. Bruney-Darüssalam
47. Cənubi Koreya Respublikası
48. Çili Respublikası
49. Ekvador Respublikası
50. Kamboca Krallığı
51. Kosta Rika Respublikası
52. Kuba Respublikası
53. Küveyt Dövləti
54. Qazaxıstan Respublikası
55. Maldiv Respublikası
56. Meksika Birləşmiş Ştatları
57. Mərakeş Krallığı
58. Monqolustan
59. Monteneqro
60. Norveç Krallığı
61. Oman Sultanlığı
62. Panama Respublikası
63. Salvador
64. Uruqvay Şərq Respublikası
65. Yeni Zelandiya
66. İordaniya Haşimilər Krallığı
67. Kipr Respublikası
68. Ukrayna
69. Belarus Respublikası
70. Rumıniya
71. Albaniya Respublikası
72. Dominikan Respublikası
73. Filippin Respublikası
74. Gürcüstan
75. Hindistan Respublikası
76. İndoneziya
77. İran İslam Respublikası
78. Kolumbiya Respublikası
79. Moldova Respublikası
80. Özbəkistan Respublikası

81. Pakistan İslam Respublikası
82. Peru Respublikası
83. Tacikistan Respublikası
84. Tailand Krallığı
85. Tunis Respublikası
86. Türkmənistan
87. Venesuela Bolivar Respublikası

- *yaşı 18-dən yuxarı olan şəxslərə münasibətdə yalnız COVID-19 pasportu – COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənəd əsasında;*

- *Azərbaycan Respublikasını tərk edərkən onlardan COVID-19-a dair PCR testi tələb olunmur;*

*"Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"*da və *"Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə"* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarında edilmiş dəyişikliklərə əsasən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin aşağıdakı şərtlərlə Azərbaycan Respublikasına uçuşlar icra edən bütün aviadaşıyıcıların reyslərinə qəbul edilməsi həyata keçirilir və hava nəqliyyatı vasitəsilə Azərbaycan Respublikasına giriş-çıxışına icazə verilir:

1. yaxın qohumu Azərbaycan Respublikasının vətəndaşı *(valideynlərindən biri, bacısı, qardaşı, əri, arvadı və ya övladı, babası, nənəsi və nəvəsi)* olan əcnəbi və vətəndaşlığı olmayan şəxslər, o cümlədən onların ailə üzvləri *(əri, arvadı, valideynləri, uşaqları) – qohumluq dərəcəsini təsdiq edən sənəd əsasında;*

2. Diplomatik pasport sahibləri - *müvafiq təsdiqedici sənədlər əsasında;*

3. Azərbaycan Respublikasında xarici ölkələrin diplomatik nümayəndəliklərinin və konsulluqlarının rəhbərləri, əməkdaşları və onların ailə üzvləri - *müvafiq təsdiqedici sənədlər əsasında;*

4. Birləşmiş Millətlər Təşkilatının (BMT) icazə sənədi pasportuna ("UN laissez-passer") malik olan şəxslər - *müvafiq təsdiqedici sənədlər əsasında;*

5. Azərbaycan Respublikasında iş icazəsi olan əcnəbi və vətəndaşlığı olmayan şəxslər - *müvafiq təsdiqedici sənədlər əsasında;*

6. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq icazəsi olan əcnəbi və vətəndaşlığı olmayan şəxslər və onların ailə üzvləri *(arvadı, əri, himayəsində olan valideynləri və 18 yaşına çatmamış uşaqları, habelə 18 yaşına çatmış sağlamlıq imkanları məhdud uşaqları) - müvafiq təsdiqedici sənədlər əsasında;*

7. Ölkəyə girişinə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən xüsusi icazə verilmiş sərnişinlər - *müvafiq təsdiqedici sənədlər əsasında;*